AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

Kulturologiya fakultəsi

Muzeyşünaslıq və turizm kafedrası

Magistratura səviyyəsində

060301– Muzeyşünaslıq, arxiv və abidələrin qorunması ixtisasında

MİF-B01 "MUZEYŞÜNASLIĞIN MÜASİR PROBLEMLƏRİ"

fənni üzrə

PROQRAM

ADMİU-nun Kulturologiya fakültə Elmi Şurasının 24 oktyabr 2025-ci il tarixli 02 saylı protokolu ilə təsdiq edilmişdir.

BAKI – 2025

TƏRTİB EDƏN:

Elfira Hacıbaba qızı Məlikova
ADMİU-nun Muzeyşünaslıq və turizm kafedrasının dosenti,
sənətşünaslıq üzrə fəlsəfə doktoru

ELMİ REDAKTOR:

Yeganə Məhəmməd qızı Eyvazova
ADMİU-nun Muzeyşünaslıq və turizm kafedrasının müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

RƏYÇİLƏR:

İlqar Həsrət oğlu Hüseynov
ADMİU-nun Muzeyşünaslıq və turizm kafedrasının professoru,
kulturologiya elmləri doktoru

Mira Arif qızı Məmmədxanova
Azərbaycan Xalça Muzeyinin baş mühafizi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru

İZAHAT VƏRƏQİ

060301 – Muzeyşünaslıq, arxiv və abidələrin qorunması ixtisasında MİF-B01 "Muzeyşünaslığın müasir problemləri" fənnin tədrisinin məqsəd və vəzifələri. Bu fənn vasitəsilə magistrlara dünya muzeylərində və muzeyşünaslıq elmində baş verən yeniliklər, muzeyşünaslıq sahəsində aparılan tədqiqatların dəqiqləşdirilməsi öyrədilir. Muzeylərin yaradılması tarixi, muzey işini tədqiq edən muzeyşünaslıq elmi, muzey mühitində bir sıra problemlərin mövcud olduğunu təsdiq edir. Muzeyşünaslığın problemləri elmi araşdırmalar əsasında meydana çıxır. Məhz bu araşdırmalar zamanı müasir muzeylərin yeni quruculuq işində aktual olan problemlər, müasir muzeyşünaslıqda sistem halını alan qarşılıqlı əlaqələr, qanunauyğunluqlar və qanunlar öyrənilir. Müasir muzeyşünaslıqda sürətli inkişafa təkan verən texnologiyaların mahiyyəti və əhəmiyyəti elmi şəkildə mənimsənilir.

"Muzeyşünaslığın müasir problemləri" fənninin öyrənilməsinin **məqsədi** tələbələrdə bu sahədə nəzəri baza və praktiki bacarıqları formalaşdırmaqdan ibarətdir. Həmçinin bu biliklər effektiv idarəetmənin sistemli prinsip və metodlarına yiyələnmələrinə kömək edəcək.

"Muzeyşünaslığın müasir problemləri" fənninin **vəzifələri:**

– muzeyşünaslığın müasir problemlərinin muzeylərin inkişaf tendensiyaları ilə əlaqəliliyinin öyrənilməsi;

-"Muzeyşünaslıq" istilahı ətfafında gedən yeni yanaşmaların arqumentləri ilə tanışlıq;

- Muzeyşünaslığın predmetinin müəyyənləşməsinə institutsional, kulturoloji, predmetli, kompleks yanaşma və bunların təhlili;

– Muzeyşünaslığın metodologiyası problemi ilə bağlı diskussiyaların müddəalarının öyrənilməsi;

- muzeyşünaslığın xüsusi metoda malik olmadığı haqqında səslənən arqumentlərin əsas aspektlərinin təyinatı;

– Muzeyşünaslığın kulturoloji səciyyəsinin öyrənilməsi;

– Muzeyşünaslıq biliklərinin tədrisində yaranan problemlərin ümumi səciyyəsi haqqında elmi-nəzəri və empirik biliklərin öyrənilməsi;

– Azərbaycan muzeyşünaslığı tədqiqatçılığında mövcud problemlərin sistematikasının öyrənilməsi.

060301 – Muzeyşünaslıq, arxiv və abidələrin qorunması ixtisasında MİF-B01 "Muzeyşünaslığın müasir problemləri" fənnin yeri və rolu. "Muzeyşünaslığın müasir problemləri" fənni Əsas təhsil proqramının strukturunda (MİF-B01) şifrəsi altında yerləşir.

MİF-B01 "Muzeyşünaslığın müasir problemləri" fənninin ixtisas üzrə olan peşə kompetensiyaları ilə əlaqəliliyi:

***Elmi-tədqiqat sahəsi üzrə*;**

- elmi axtarışlarda fundamental prinsiplərə riayət etmək, dünyəvi nəzəri sistemin tətbiqinə bələd olmaq **(PK-3);**
- muzeyşünaslığın nəzəri tarixi istiqamətində dünya muzeylərində nümayiş etdirilən ən yaxşı nümunələrini təhlilə cəlb etmək **(PK -4);**

Pedaqoji sahə üzrə:

-elektron kitabxanalardan, elmi-texniki bazadan istifadə etmək **(PK-6);**

-tədris, təlim və ya digər üsullarla öz biliklərini başqasına ötürə bilmək **(PK-7);**

Təşkilati-inzibatçılıq sahəsi üzrə:

PK-17-müasir inkişaf istiqamətlərini proqnozlaşdırmağı bacarmaq;

PK-20 Müasir dövrdə, dünya muzeyşünaslığının aktual problemlərinin öyrənilməsini dərk etmək;

"Muzeyşünaslığın müasir problemləri" fənninin Təlim Nəticələri (FTN) aşağıdakıları nəzərdə tutur:

FTN 1. Tələbə "Muzeyşünaslıq" və "muzey işi"nin əlaqəli təhlilini bilir;

FTN 2.Tələbə "Muzeyşünaslığın müasir problemləri"ni bilir;

FTN 3. Tələbə “Muzeyşünaslıq” anlayışının dəyər potensialını təşkil edən meyarların morfologiyasını təhlil etməyi bacarır;

FTN 4. Tələbə Muzeylərin Muzeyşünaslıq elmi vasitəsilə qavranılmasını öyrənir;

MİF-B01 Muzeyşünaslığın müasir problemləri fənninin mövzular üzrə keçirilən saatların miqdarı

№	Mövzunun adı	Müh.	Sem.
1	Muzeyşünaslığın müasir problemlərinin elmi səciyyəsi	2	2
2	Müxtəlif muzeyşünaslıq mərkəzlərində aparılan tədqiqatlara dair elmi yeniliklər	2	2
3	Müasir muzey fəaliyyətində yeniliklərin muzeyşünaslıq aspektindən təhlili.	2	2
4	Dünya tədqiqatçılarının muzeyşünaslığın problemlərinin həlli istiqamətindəki yenilikləri	2	2
5	Azərbaycan muzeyşünaslığının müasir problemləri	2	2
6	Muzeyşünaslığın müasir problemlərinin koordinasiyasında İKOFOM-un rolu.	2	2
7	Universitet və muzeylərin birgə fəaliyyəti muzeyşünaslığın əsas problem obyekti kimi.	2	2
8	Müasir mühitdə muzey işinin aparıcı istiqamətlərinin muzeyşünaslıq tərəfində öyrənilməsi.	1	1
	Cəmi: 30 saat	15	15

Mövzu 1. Muzeyşünaslığın müasir problemlərinin elmi səciyyəsi

Muzeyşünaslığın müasir problemləri və onların elmi əsası. Müasir anlamda "Muzey işi üzrə elm" kimi başa düşülən muzeyşünaslığın dünya muzeylərində baş verən yeniliklərə münasibəti. Dünya muzeylərinin problemlərinin tədqiqi və təhlili muzeyşünaslığın əsas prioritet məsələlərindən biri kimi. Müasir dövrdə muzey fəaliyyətində yeni elmi addımların klassik muzey işi ilə uzlaşdırılması məsələləri tədqiqat obyekti kimi. Son dövrlərdə klassik və müasir muzeylərin oxşar və fərqli cəhətlərinin araşdırılması muzeyşünaslığın əsas problemlərindən biri kimi. Qlobal tədqiqatlara yol açan yeni muzey konsepsiyalarının öyrənilməsi. Elmi-tədqiqat mərkəzləri kimi fəaliyyət göstərən muzeylərin problemlərinin muzeyşünaslıq tərəfindən araşdırılması.

Mövzu 2.Müxtəlif muzeyşünaslıq mərkəzlərində aparılan tədqiqatlara dair elmi yeniliklər

Dünya miqyasında ardıcıl olaraq yaradılan muzeyşünaslıq mərkəzlərinin səbəbləri. Müxtəlif ölkə muzeyşünaslarının muzey mərkəzlərinin fəaliyyəti ilə əlaqədar yeni əsərləri. Muzeyşünaslıq mərkəzlərində çap edilən əsərlərin əhəmiyyəti. Yeni elmi diskussiyalar və daha əhəmiyyətli əsərlərin müəllifləri olan: P.Boylan, P.Duşa, O.Kirş, L.Yaqoşeva, İ.Maroeviç, V.Rutara və digər alimlərin müasir muzey konsepsiyası haqda fikirləri.

Avropa, Amerika, Asiya və s. ölkələrdə muzeyşünaslığın muzey üçün əhəmiyyəti haqqında elmi mülahizələr.

E.Taborskinin muzeyşünaslığa semiotik-quruluşdan yanaşması. D.Kliffordun konsepsiyasında muzeylər kontakt zonası kimi təhlili. Muzeylərdə qorunan milli irsin regional kommunikasiyasının əlaqələri L.Smitin tədqiqatlarında.

Mövzu 3. Müasir muzey fəaliyyətində yeniliklərin muzeyşünaslıq aspektindən təhlili

Muzeylər muzeyşünaslığın tədqiqat obyekti kimi. Muzey sektorunun professional şəklə salınması muzeyşünaslığın inkişaf

perspektivi kimi. Muzey işinin çoxsahəli və çoxçalarlı fəaliyyətinin muzeyşünaslıqda əksi. Muzeylərdə fond işi, mühafizə işi, bərpa işi, istərsə də ekspozisiya işi, həm də elmi-maarif, pedaqoji fəaliyyət, estetik tərbiyə işi ilə əlaqədar muzeyşünaslıq tədqiqatlarında yeni konseptual yanaşma mexanizmi.

Muzeylərin funksional fəaliyyəti istiqamətləri olan: 1.Elmi-maarif məqsədləri, yəni elmi biliklərin kütləviləşdirilməsi və yayılması; 2. Estetik maarif məqsədləri, yəni incəsənətin təbliği və bu yolla estetik tərbiyə məqsədləri; 3.Ümumi mədəni səviyyənin yüksəldilməsi məqsədlərinin muzeyşünaslıq aspektindən təhlili və təbliği. Muzeyşünaslığa dair ədəbiyyatlarda muzeylərin funksional fəaliyyəti probleminə müasir yanaşma.

Mövzu 4.Dünya tədqiqatçılarının muzeyşünaslığın problemlərinin həlli istiqamətindəki yenilikləri

Muzeyşünaslıq tədqiqatlarının baza və konseptual əsasları sahəsində mövcud elmi-nəzəri mənbələr. Dünya tədqiqatçıları muzeyşünaslığın müasir problemləri, muzeyşünaslığın ən effektli imkanları, vasitələri, metodları, yeni muzey quruculuğu, muzey fəaliyyəti prosesində qarşılıqlı əlaqəliliyin nəticələri haqqında. Muzeyşünaslığın bir elm kimi öyrəndiyi yeni proseslər: müxtəlif tarixi dövrlərə aid sosiomədəni informasiyaların qorunması, dərki və onların muzey əşyaları, bədii sənətkarlıq nümunələri vasitəsilə ötürülməsi; muzey işinin mərhələlərlə inkişafı; muzey fəaliyyətinin müxtəlif forma, vasitə və yollarla istiqamətləndirilməsi; muzey fəaliyyətinin kompleks tədqiqinin sistemləşdirilməsi.

“Muzeyşünaslıq” istilahının müəyyənləşməsinə yeni yanaşmalar.

Muzeyşünaslıq – sosial informasiyanın qorunub saxlanılması proseslərini, muzey əşyaları vasitəsilə bilik və emosiyaların dərk olunması və ötürülməsini, muzey işini, muzeyi ictimai institut kimi, onun sosiomədəni funksiyaları və onların müxtəlif ictimai-iqtisadi şəraitdə həyata keçirilmə formalarını öyrənən elm kimi. Rus muzeyşünasları L.M.Şlyaxtina, T.Y.Yureneva, M.E.Kaulenin bununla bağlı fikirləri. Muzeyşünaslığın xüsusi metoda malik olmadığı haqqında səslənən fikirlərin başlıca arqumentləri.

Mövzu 5.Azərbaycan muzeyşünaslığının müasir problemləri

Azərbaycanda muzeyşünaslığın təşəkkülü, müasir vəziyyəti, problemləri və perspektivləri.

Azərbaycan muzeyşünaslığının aktual problemləri ilə bağlı nəzəri məlumatlar sistemi. Azərbaycan muzeyşünaslığının mahiyyəti, vəzifələri, prinsipləri, imkanları və vasitələri. Azərbaycanda mədəniyyət mənbələri, milli muzey quruculuğu və milli muzeyşünaslığın inkişafı.

Milli irsin qorunmasında müasir muzeylərin yeni konsepsiyaları. Muzeyşünaslıq nəzəriyyəsinin muzey fəaliyyəti ilə əlaqədar yeni tendensiyaları.

Azərbaycan muzeyşünaslığının müasir muzey təcrübəsindən bəhrələnməsi metodikası. Muzey fəaliyyətinin elmi və bədii yaradıcılıqdan asılılığı və s. bu kimi məsələlərin muzeyşünaslıq aspektindən təhlili. Muzeyşünaslığın yeni problemlərinin müasir elmi tədqiqat mövzusu kimi öyrənilməsi. Milli muzeylərin yaradıcılıq fəaliyyəti və muzeyşünaslıq sahəsində çap edilən elmi əsərlərin təqdimatı problemlərinə dair.

Mövzu 6.Muzeyşünaslığın müasir problemlərinin koordinasiyasında İKOFOM-un rolu

Muzeologiya üzrə Beynəlxalq komitənin (İKOFOM) fəaliyyətinə dair faktoloji məqamların təhlili. Digər Beynəlxalq komitələrin yaradılmasında İKOFOM –un rolu. İKOFOM-un muzeyşünaslıq (muzeologiya) sahəsində apardığı islahatlar haqqında. Muzeyşünaslığa yeni baxış və yeni dəyər kontekstindən yanaşılmasında İKOFOM-un rolu.

İKOFOM-un üzvləri olan dünya muzeyşünaslarının müasir muzey yaradıcılığına yeni baxışı. Elmi əsərlərdə muzey fəaliyyətində baş verən müasir problemlərin təhlili. O cümlədən, Beynəlxalq muzeylərarası ekspozisiya mübadiləsinin təşkili və metodikası, muzey işinin təşkili, idarə olunması və iqtisadiyyatı, idarə və müəssisələrlə muzey işinin əlaqələndirilməsinin təşkili və metodikası kimi mühüm muzey fəaliyyətinin muzeyşünaslıq aspektindən dəyərləndirilərək təhlili.

Mövzu 7.Universitet və muzeylərin birgə fəaliyyəti muzeyşünaslığın əsas problem obyekti kimi

Muzeyşünaslıq üzrə təhsil alan tələbələrin nəzəri biliklərinin təcrübədə əsaslandırılması üçün aparılan islahatlar. Universitetin muzeylərlə əlaqəsinin möhkəmləndirilməsi; universitet və muzeylərin birgə tədbirlərinin təşkili; müasir muzey fəaliyyəti qarşısında qoyulan əsas məsələlər; gələcək muzey işçilərinin muzeylərdə təlim keçməsi və s. bu kimi məsələlərin muzeyşünaslıq problemlərində işıqlandırılması.

Muzeyşünaslığın müasir problemləri olan: təhsil zamanı muzeyşünasların muzeydə keçdiyi təcrübənin əhəmiyyəti, tələbələrin muzey təcrübəsi zamanı qarşılaşdığı problemlər və s. real faktların elmi materiallarda, o cümlədən, məqalə, metodiki vəsait, metodiki göstəricilərdə işıqlandırılması.

Universitet və muzeylərin birgə fəaliyyəti zamanı muzey fəaliyyəti prosesində qarşılıqlı əlaqədə olan əsas ünsürlərin muzeyşünaslıq tərəfindən təhlili. Muzeylərdə təcrübə keçən muzeyşünaslara (nəzəri biliklərin inkişafı və möhkəmləndirilməsi məqsədilə) muzey mühitinin aşılanması, muzey fəaliyyətində mövcud olan forma və metodlarla tanışlıq.

Mövzu 8. Müasir mühitdə muzey işinin aparıcı istiqamətlərinin muzeyşünaslıq tərəfində öyrənilməsi

Muzeylər muzeyşünaslığın tədqiqinin bazası kimi.

Muzeylərin klassik formasının müasir tələblərlə qarşılaşdırılmasında muzeyşünaslıq tədqiqatlarının rolu. “Muzeylər tarixi abidələrin qoruyucusu” anlamından əlavə mürəkkəb kompleks səviyyəsinə malik bir sıra sosial məsələləri həll edən sistem kimi. Muzey fəaliyyəti prosesində tətbiqi elementlər və ünsürlər arasındakı qarşılıqlı əlaqələrin mahiyyətinin dəqiq aydınlaşdırılması. Muzey fəaliyyətinin məqsədyönlü davamı və səmərəli nəticələr verməsi üçün fəaliyyət elementləri və ünsürləri arasındakı qarşılıqlı əlaqə və asılılıqların öyrənilməsi, tədqiqi muzeyşünaslığın müasir problemi kimi.

Müasir mühitdə: muzeylərin elmi-maarif fəaliyyətinin təşkili və metodikası, elmi-kütləvi işin planlaşdırılması, elmi-tədqiqat işinin təşkili və metodikası, muzey ekspozisiyasının öyrənilməsinin təşkili və metodikası, muzey əşyalarının tədqiqi metodikası, muzey fondlarının tədqiqi, mühafizəsi, bərpasının təşkili və metodikası, muzeydə ekskursiya işinin təşkilinin forma və metodları.

İstifadə olunmuş ədəbiyyat
Azərbaycan dilində

1. Azərbaycan Respublikası Dövlət muzeylərində saxlanılan muzey sərvətlərinin uçotu və mühafizəsinə dair təlimat. Bakı, 1996, 154 s.
2. "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. "Respublika" qəz., Bakı, 2007, 7 mart.
3. Bayramov A.H. Tariximiz, yaddaşımız, sərvətimiz. Bakı, 2007; XXI əsrin muzeyi: problemləri, perspektivləri. Bakı, 2007.
4. Eyvazova Yeganə. Muzey ekspozisiyası. Dərs vəsaiti. Bakı, "Mars Print" 2009, 228 s.
5. Eyvazova Yeganə. Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı. Dərs vəsaiti. Bakı: "Mars-Print", 2010, 344 s.
6. Əliyeva Nailə. Muzey işinin təşkilində müasir texnologiyalar. Kult. üzrə fəl. dok. … diss. avtoref. Bakı: ADMİU, 2011, 29 s.
7. Əmirxanov Sabir. Azərbaycanda muzeyşünaslığın aktual problemləri. Bakı: Bakı Biznes Universiteti, 2011, 570 s.
8. Xəlili Fariz. Azərbaycan Tarixi Muzeyinin arxeoloji materialları Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi (ən qədim dövrdən e.ə. IV əsrə qədər). Tarix üzrə fəl. dok. ... dis. avtoref. Bakı: AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2007, 24 s.
9. Qurbanova Elfira. Mədəni irsin mühafizəsi və muzeyşünaslığın problemlərinə dair. Mədəni müxtəliflik sosial-siyasi dəyər kimi. Kulturoloqların II Milli Forumu (Beynəlxalq elmi-praktik konfrans, Bakı, 3 iyun 2010-cu il). Bakı: Elm, 2010, 504 s. (s.261-270).
10. Qurbanova Elfira, Əlizadə Apdin. Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası. Dərslik. Bakı:Təknur,2011,272 s.
11. Qurbanova E.Muzeylər Milli irsin qoruyucusu və təbliğatçısı kimi. "Musiqi dünyası". Üzeyir Hacıbəyov "Leyli və Məcnun" 100, 1-2/35. 2008, s.224-226.
12. Qurbanova E. Muzeyşünaslığın bir elm kimi meydana gəlməsi. Mədəniyyət dünyası, elmi-nəzəri məcmuə, XV buraxılış, Bakı, ADMİU, 2008, s.303-307.

13. Qurbanova E., Məlikov F.Tarixi yaşadan muzeylər və muzeyşünaslar.Sosial-siyasi problemlər (elmi-nəzəri jurnal), Bakı, 2009, №3 (23), s.155-160.
14. Qurbanova E.. Tarix elminin muzeyşünas cəfakeşləri (Milli Azərbaycan Tarixi Muzeyinin materialları) Azərbaycan Arxeologiyası və etnoqrafiyası. Bakı 2010, 2, s. 164-168.
15. Qurbanova E. Mədəni irsin mühafizəsi və muzeyşünaslığın problemlərinə dair. Mədəni müxtəliflik sosial-siyasi dəyər kimi.Kulturoloqların II milli forumu.Beynəlxalq elmi-praktik konfrans. Baku – "Elm"- 2010, s. 261-270.
16. Qurbanova E.Əlizadə A. "Muzeylərdə elmi-tədqiqat işinin təşkili və metodikası"Dərslik. Bakı – 2011, səh.271 (yenidən redaktə edilərək təkrar nəşr) Bakı-"Gənclik"-2015, 271 səh., Bakı-2017 (yenidən işləməklə təkrar nəşr)., 239 s.
17. Qurbanova E.H., Verdiyev E.Ə.. Azərbaycan təhsil sistemindəı İKT tətbiqi. Azərbaycan Dövlət Aqrar Universiteti. Qloballaşma şəraitində təhsil və elmin inkişaf problemləri. Beynəlxalq elmi-praktik konfransın tezisləri (03-05 Oktyabr 2011) Gəncə -2011. s.230-231.
18. Qurbanova E. (ADMİU) Müasir muzey fəaliyyətinin elmi-tədqiqat işlərində yeniliklər. "Mədəniyyətlərarası dialoqda ənənəvi incəsənətin rolu". ADMİU – nun 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. Bakı – 2012. s. 119-122.
19. Qurbanova E. Müasir muzey fəaliyyətində tarixiliyə elmi münasibət. Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyi. II Respublika Elmi konfransının materialları. Bakı – 18.VI. 2012. S.123-130.
20. Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu (1 sentyabr 2001-ci ilədək olan vəziyyətə görə). Bakı, Elm, 2001, 280 s.
21. "Muzeylər haqqında" Azərbaycan Respublikasının Qanunu. "Azərbaycan" qəz., Bakı, 2000, 22 iyun.
22. Muzeyşünaslıq. Ali məktəblər üçün dərslik (R.Ağayev, S.Əmirxanov, A.Əlizadənin redaktəsi ilə). Bakı, 2002, 439 s.
23. "Müasir İncəsənət Muzeyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2006-cı il tarixli Sərəncamı. "Azərbaycan" qəz., Bakı, 2006, 20 dekabr.

24. Məlikova E. Azərbaycan Respublikası Muzey işi üzrə elmi-metodiki kabinənin yaranmasının tarixi. Təsviri və dekorativ-tətbiqi sənət məsələləri. № 1 (7) Bakı – 2011. s.73-77.
25.Məlikova E.İncəsənət muzeyləri və milli müəyyənlik problemləri. Müasir Dünya inteqrasiyası və müqavimət prosesləri. Azərbaycan dövlətçiliyinin 94 illiyinə və Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr edilən beynəlxalq elmi konfransın materialları. Bakı, Azərbaycan Universiteti, 9 iyun 2012-ci il. "Elm və təhsil" Bakı – 2012. s.316-321,
26.Məlikova E. Tarix profilli muzeylərin yaranma səbəbləri.Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı: ADMİU-nun mətbəəsi, 2017, s.272-275.
27.Məlikova-Qurbanova E. Muzeyşünaslıq elminin muzey işi ilə əlaqəli təhlili. "Muzeyşünaslığın tədrisi problemləri" II Respublika elmi konfransın materialları, Bakı – 2018,s.48-53
28.Məlikova-Qurbanova Ə. Azərbaycanda muzeyşünaslıq elminin formalaşmasında Milli Azərbaycan Tarixi Muzeyinin rolu (Milli Azərbaycan Tarixi Muzeyinin atxiv materialları əsasında) Milli Azərbaycan Tarixi Muzeyi – 2018. Toplu. Bakı, "Elm" nəşriyyatı, 2018, s.290-298.
29.Məlikova-Qurbanova E. "Muzeyşünasların nəzəri və təcrübi biliklərinin muzey vasitəsi ilə inkişafı" Bakalavr və magistr təhsil pilləsində təhsil alan tələbələr üçün metodiki vəsait. Bakı – "Elm"-2019, 106 səh.
30.Məlikova-Qurbanova E. XX əsrin ikinci yarısında (1950-1960-cı illər) Azərbaycanda muzey işində aparılan islahatlar. Azərbaycan muzeyi – 100. Muzeyşünaslıq kafedrası. Muzeyşünaslığın tədrisi problemləri III Respublika Elmi Konfransın materialları. Bakı – 2019, Səh.77-81.
31.Məlikova-Qurbanova E. Müasir muzey fəaliyyətində yeniliklər. AMEA Milli Azərbaycan Tarixi Muzeyi. "İstiqlal" muzeyinin 100 illiyinə həsr olunmuş "Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası" III Respublika Elmi Konfransının Materialları. Bakı – 18.06.2019, s. 156-162.
32. Məlikova-Qurbanova E. Muzeyşünaslığın inkişafında Azərbaycanın sənətşünas alimi Mürsəl Nəcəfovun rolu. səh-28-

34.Azərbaycan Milli Xalça Muzeyinin “Təsviri və dekorativ-tətbiqi sənət məsələləri” elmi toplusu. Bakı, Çaşıoğlu, 2019, 132 səh.
33.Məlikova-Qurbanova E. Muzey mənbəşünaslığı: tədqiqatlar və faktlar. Mədəniyyət Dünyası. Azərbaycan Dövlət XXXVIII buraxılış, Bakı, 2020. səh.77-81.
34.Məlikova (Qurbanova) E. Azərbaycan Muzeyşünaslığı (Monoqrafiya). I cild, Bakı “Elm”, 2021, 232 səh.
35.Məlikova (Qurbanova) E.. Azərbaycan Muzeyşünaslığı (Monoqrafiya). II cild, Bakı “Elm”, 2022, 464 səh.s.
36.Məlikova E. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində muzeyşünaslıq ixtisasının tarixinə dair. s.127-131. Azərbaycan sənətşünaslığı şərq-qərb dialoqu kontekstində adlı beynəlxalq elmi-praktiki konfransın materialları. ADMİU-nun 100 illik yubileyinə həsr olunur. Bakı-2023.
37.Məlikova-Qurbanova E. Azərbaycan Tarixi Muzeyində professional Muzey işinin formalaşmasında Akademik Nailə Vəlixanlının rolu. s.223-227. 17. Uluslararası Türk Sanatı, Tarixi və Folkloru Kongresi/sanat etkinlikleri. 05-07 Eylül (september) 2023 Baku-Azerbaycan.

Rus dilində

38. Ананьев В.Г. Национальные и международные музейные организации: Учебно-методическое пособие. – Санкт-Петербург; 2013. – 140 с.
39.Голдинг В. Коммуникации и образование в музее XXI века: Опыт Центра по изучению музеев и галерей // Вопросы музеологии. 2010. № 1. С. 89-98.
40.Грицкевич В.П. История музейного дело в новейший период. СПб., 2009.
41.Гуд Б. Музеи будущего // Сибирский сборник: научно-литературное периодическое издание: приложение к «Восточному обозрению». СПб., 1892. Вып. 2. С.38-68.
42.Гарник В.Я. Очерки музейного дела Аз. ССР. Москва 1971., 401 с.
43. Гурбанова Э. Национальная культура как основа мировых культур. İncəsənət və mədəniyyət problemləri. № 2 (24). Bakı – 2008. c.14-17.

44.Гурбанова Э. История создание и началный этап развитие АР научно- методического кабинета музейной работа. Musiqi dünyası. Bakı -2011. 123-129 s.
45.Долак Я. Музеология – настоящее и будущее // Музеология – музееведене в XXI веке: Проблемы изучения и преподования. Материалы Международной научной конференции, Сагнкт-Петербург, 14-16 мая 2008 года. СПб., 2009. С. 12-19.
46.Курбанова-Меликова Э. «Профессиональная подготовка музееведов к музейному делу». Международный научный онлайн семинар «Актуальные проблемы современного музееведения: наука, образование, практика» Академии Художеств Узбекистана Национальный Институт Художеств и дизайна Камолиддина Бехзода (на русском яз.)Ташкент-2021 (31 марта), стр. 62-65.
47.Курбанова-Меликова Э. «Подготовка музееведов для работы в Художественных музеях» Сборник материалов международной научно-практической – конференции Инновационные процессы в художественном образовании: стратегия , теория и практика развития. Академии Художеств Узбекистана Национальный Институт Художеств и дизайна Камолиддина Бехзода (на русском яз.) Ташкент-2021. стр.76-78.
48.Музееведение. Музей исторического профеля.М. 1988.,286 с.
49.Сотникова С.И. Музеология: Пособие для вузов. М., 2004.
50.Странский З. Понимание музееведения // Музееведение. Музеи мира: сб. науч. трудов / НИИ культуры. М., 1991.
51.Странский З. Музей, искусство и перспективы развития человечества // Музейное дело. Музей. Культура. Общество. М., 1992.
52.Юриневна Т.Ю. Музееведение: учебник для высшей школы. М., 2006.
53.Решетников Н. И. Музееведение: курс лекций. М.: МГУКИ, 2000.
54.Шляхтина Л. М. Основы музейного дела: Теория и практика. М., 2005.

İnternet resursları:

55.Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya (16 noyabr 1972-ci il). Azərbaycan Respublikası bu Konvensiyaya 6 dekabr 1993-cü ildə qoşulmuşdur. http://files.preslib.az/projects/azereco/az/eco_m4_7.pdf

56.YUNESKO-nun "Qeyri-maddi mədəni irsin qorunması haqqında" Konvensiyası http://www.e-qanun.az/files/framework/data/12/f_12418.htm

57.Эльфира Маликова. Елена Эльтс. Теоретическое осмысление запретительных музейных практик: вызовы и диверсификация как основной метод установления табу. Ikompraque 2022.qcon.mehttps:// ikompraque 2022.qcon.me/topics

58.Elfira Melikova – Qurbanova. Azərbaycan muzeylərində Nizami irsi. İnnovativ Texnologiyalar Beynəlxalq elmi-araşdırmalar jurnalı. Nömrə 19, 2021səh.75-93 (DOI: 10.30546/2616-441.

59.Melikova Elfira. Museum education in the interpretation of museoligists. Tezis. S.122-123. YOCOCU İstanbul 2024. 15th -17th October 2024. İstanbul Universitu Prof. Dr.Fuat Sezgin Congress and Culture Centre

Çapa imzalanıb: 10.12.2025

Format: 60x84 1/4. Qarnitur: Times.

Həcmi: 4 ç.v.

ADMİU-nun mətbəəsində çap edilmişdir.

Ünvan: Bakı şəhəri, Zərdabi 39a

Telefon: (+994 12) 434-50-04